## BİSSERKA VELEVA PETRUSENKO



Dosent Bisserka Veleva-Petrusenko Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetində (Bolqarıstan Respublikası) və Humboldt Universitetində (Almaniya Federativ Respublikası) Alman filologiyası ixtisası üzrə təhsil almışdır.

1996-cı ildən etibarən Sofiya Universitetinin Klassik və müasir filologiya fakültəsinin Qərb dilləri kafedrasında çalışır. O, ilk olaraq Jurnalistika fakültəsində, daha sonra isə Hüquq fakültəsində alman dilini tədris etmişdir.

2004–2005-ci illərdə Almaniyanın Yena şəhərində yerləşən Fridrix Şiller Universitetinin Slavyan Araşdırmaları İnstitutunda bolqar dili üzrə qonaq-professor qismində fəaliyyət göstərmişdir.

2020-ci ildən Bakı Slavyan Universitetində bolqar dili, ədəbiyyatı və mədəniyyəti fənlərini tədris edir. Hazırda BSU-nun Balkanşünaslıq kafedrasında çalışır.

B.Veleva-Petrusenko bolqar, rus, ingilis və alman dillərində sərbəst danışır.

### Elmi fəaliyyəti:

- Monoqrafiyalar;

1. "Bolqarıstan və Almaniya arasında diplomatik yazışmalar", 2018, Sofiya: “Sv. Kliment Oxridski” Universitet Nəşriyyatı, ISBN: 978-954-07-4537-4, 399 s.
2. "Alman və bolqar dillərində diminutivlərin qarşılaşdırmalı təhlili", 2020, Sofiya: “Sv. Kliment Oxridski” Universitet Nəşriyyatı, ISBN: 978-954-07-5111-5, 304 s.

- Lüğətlər;

1. "Bolqar dilində xarici sözlər lüğəti", 2001, Plovdiv: Hermes, ISBN: 954-459-841-6, 259 s.
2. "Yeni Universal Bolqar–Alman Lüğəti: 118 000 söz, ifadə və mənalar", 4-cü nəşr, 2020, Sofiya: PONS, ISBN: 978-954-8278-72-0, 235 s.

- Digər fəaliyyətlər;

- 100 elmi məqalə və nəşr;
- 117 beynəlxalq və yerli konfrans;
- 20 layihə.